*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır     3 dekabr 2014-cü il № 92 (1909)     Qiyməti 25 qəpik


## Rəsmi xronika

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul edib.***

***Ölkəmizin böyük qaz ehtiyatlarına malik olduğunu deyən Prezident İlham Əliyev hazırda təbii qazın müxtəlif marşrutlarla nəqlinin uğurla həyata keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Qaz İxrac edən Ölkələrin Forumu ilə əməkdaşlığın təşkilata üzv olan ölkələrlə ikitərəfli əlaqələrin inkişafına da xidmət edəcəyinə əminliyini ifadə etdi.***

***Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.***

***Dövlətimizin başçısı Türkiyənin qarşıdakı ildə G20-yə sədrliyi münasibətilə Rəcəb Tayyib Ərdoğana təbriklərini çatdırıb, bunu Türkiyənin beynəlxalq aləmdə artan rolunun və nüfuzunun göstəricisi kimi qiymətləndirib.***

***Söhbət zamanı dövlət başçıları ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ilə bağlı məsələləri müzakirə edib, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.***

* * *

***Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.***

***Prezident İlham Əliyev Məhəmməd Əşrəf Qanini seçkilərdə qazandığı qələbə münasibətilə Azərbaycan xalqı adından və öz adından təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. "Bu səfər bizim əməkdaşlığımızın, dostluğumuzun göstəricisidir və mən əminəm ki, biz bütün sahələrdə əməkdaşlığımızı davam etdirəcəyik", - deyən Azərbaycan Prezidenti ölkələrimiz arasında çox yaxşı siyasi əlaqələrin olduğunu bildirdi.***

***Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi aparıldı. Dövlət başçıları, həmçinin regional əməkdaşlıq, investisiya, energetika, inşaat, kənd təsərrüfatı, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivlərini müzakirə etdilər.***

**AzərTAc-ın materialları əsasında**

# "Mən fəxr edirəm ki, Azərbaycanlıyam"

## Ulu öndər Heydər Əliyev müasir dövlətçiliyimizin və doğma ordumuzun yaradıcısıdır

***Xalqımızın çoxəsrlik tarixində mühüm xidmətləri olmuş dövlət xadimlərini fikirləşəndə ilk öncə ulu öndərimizi - dünya şöhrətli siyasətçi Heydər Əliyevi düşünürəm. O, tarixin müxtəlif dövrlərində, yəni, ictimai-siyasi əhəmiyyətinə görə bir-birinə zidd olan tarixi mərhələlərdə Azərbaycana rəhbərlik edib. Amma bütün dövrlərdə dərin zəkası və heyrətamiz idarəçilik qabiliyyəti ilə xalqımızın taleyində mühüm əhəmiyyət kəsb edən islahatlara imza atıb. Mən deyərdim ki, ömrünün mənasını xalqına, Vətəninə xidmətdə görən dahi rəhbər, doğrudan da, böyük dövlət adamı idi. Çünki onun hər bir qərarında, atdığı hər bir addımda xalqının gələcəyinə hesablanmış müdriklik və uzaqgörənlik vardı.***



**Heydər ƏLİYEV:**

*"Mən öz üzərimə böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim. Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram!"*

Bir dəfə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində kursantların təlim-tərbiyəsinə cavabdeh olan təcrübəli zabitlərdən biri ilə söhbət edirdim. O, mənə xatırlatdı ki, hələ sovet dövründə də Heydər Əliyev milli hərbi kadrlarımızın hazırlanmasına ciddi diqqət yetirirdi. Həmsöhbətimin dediklərinə görə, bir dəfə respublika rəhbəri kimi məktəbə gəlmiş ulu öndərimiz burada çalışan azərbaycanlı hərbçilərlə maraqlanır. Məlum olur ki, məktəbdə milli zabit kadrları yox dərəcəsindədir, onda Heydər Əliyev narahatlığını bildirir ki, niyə görə Bakıda mövcud olan hərbi təhsil ocağında milli kadrlara yer verilmir. Müsahibim deyirdi ki, həmin vaxtdan sonra ittifaqın müxtəlif bölgələrinə səpələnmiş azərbaycanlı zabitlər Vətənimizə dəvət edilir.

Əslində sovet dövründə, yəni, imperiyanın qılıncının dalı-qabağı kəsən bir vaxtda milli məzmunda söhbətlər aparmaq respublika rəhbərlərindən qətiyyət tələb edirdi. Amma bütün qadağalara baxmayaraq böyük öndərimiz tarixin müxtəlif məqamlarında ölkəmizi, xalqımızın taleyini fikirləşib və düşünülmüş addımlar atıb. Məhz ötən əsrin 70-ci illərində Bakıda yaradılmış ibtidai hərbi məktəb (indiki C.Naxçıvanski adına Hərbi Lisey) dahi rəhbərin müdrikliyinin bariz nümunəsi idi. Bu təhsil müəssisəsinin Azərbaycanda fəaliyyətə başlaması gənc nəslin hərbə marağının güclənməsinə və xalqımızın ordu ənənələrinin inkişafına güclü təkan oldu.

20-ci əsrin sonlarına yaxın Azərbaycanın tarixi müstəqilliyini bərpa etməsi azadlıqsevər bir millətin həyatında mühüm hadisə idi. Amma ilk müstəqillik dövrü bir sıra çətinliklərlə müşayiət olundu. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalan gənc müstəqil ölkə digər tərəfdən də daxili xaos və özbaşınalıqların burulğanına çevrildi. Artıq Azərbaycan xalqı öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Belə mürəkkəb tarixi şəraitdə milyonlarla insan müdrik dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışında israrlı idi. Və 1993-cü il iyunun 15-də ulu öndərin tarixi Qayıdışı baş tutdu.

"Mən öz üzərimə böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimizi möhkəmləndirim. Əgər kimsə Azərbaycanın dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram!" Bu sözləri oxuyan hər kəs öncə ulu öndərimiz, müstəqil Azərbaycanın banisi Heydər Əliyevi xatırlayır, düşünür, onu böyük ehtiramla yad edir. Ulu öndərin mənalı ömür yolu Vətənə sədaqət nümunəsidir. Dünyanın tanınmış siyasətçiləri bu böyük dövlət xadiminin siyasi irsini özlərinə örnək hesab edirlər. Azərbaycan - Heydər Əliyev adı qoşa çəkilir və hər zaman bu ad qoşa səslənəcəkdir. Çünki müasir Azərbaycan dövlətinin yaranmasında və möhkəmlənməsində onun müstəsna xidmətləri olub. Elə buna görə də Azərbaycan xalqı haqlı olaraq onu özünə ümummilli lider elan edib.

Ölkəmizin müstəqilliyə yenicə qovuşduğu ilk dövrdə Azərbaycan xalqı çətin, taleyüklü zaman yaşayırdı. Torpaqlarımız təcavüzkar Ermənistanın hərbi müdaxiləsinə məruz qalır, hakimiyyətdəki rəhbərlərin səriştəsizliyi üzündən müstəqilliyimiz ciddi təhlükə ilə üzləşirdi. Və belə bir vəziyyətdə ölkəmizdə vətəndaş qarşıdurması yaranmışdı, yenicə qazanılmış müstəqilliyimiz və dövlətçiliyimiz məhv ola bilərdi. Təcrübəli siyasi xadim Heydər Əliyev 1993-cü ilin yayında xalqın tələbi ilə hakimiyyətə qayıdıb müstəqil Vətənimizin parçalanmasının, labüd vətəndaş müharibəsinin qarşısını aldı. Bir dahi siyasətçi olaraq xalqımızı bütün xarici və daxili təhlükələrdən xilas etdi və Azərbaycanı qısa bir zamanda beynəlxalq aləmə tanıtdı. Ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin təşəkkül tapmasında ən böyük xidmət ümummilli lider Heydər Əliyevə məxsusdur. Azərbaycanın dövlətçilik tarixinin 34 illik mühüm bir mərhələsi onun adı ilə bağlıdır.

Siyasi hakimiyyətə qayıdışından sonra dahi rəhbərin əsas məqsədi ölkədə ictimai-siyasi sabitliyin və milli birliyin yaranması oldu. Bundan ötrü öncə insan hüquq və azadlıqlarının qorunmasına, hüquqi dövlət quruculuğuna önəm verildi, iqtisadi islahatlara başlanıldı. 1994-cü ilin 20 sentyabrında ölkəmizdə iri neft şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. 20-ci əsrin mühüm neft strategiyası olan bu tarixi müqavilə müstəqil Azərbaycan dövlətini dünyaya tanıtmaqla bərabər, onun iqtisadi qüdrətinin bünövrəsini yaratdı.

Hüquqi dövlət və demokratik cəmiyyət quruculuğuna əhəmiyyət verən rəhbər bu istiqamətdə mühüm islahatların həyata keçirilməsinə, ədalət meyarına güvənən məhkəmə-hüquq sisteminin formalaşmasına nail oldu. Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dünyəvi dövlət quruculuğuna möhkəm təminat yaratdı.

Ermənistanın hərbi təcavüzünə son qoymaq və torpaqlarımızı işğal təhlükəsindən xilas etmək üçün nizami ordunun yaradılması da görkəmli dövlət xadiminin həyata keçirdiyi əsas islahatlardan idi. Yuxarıda qeyd etdiyim kimi, Heydər Əliyev hələ postsovet dönəmində Azərbaycan xalqının milli hərbi ənənələrə yiyələnməsi üçün məqsədyönlü işlər görmüşdü.

Böyük siyasət xadiminin 2 noyabr 1993-cü il tarixli xalqa müraciəti ilə Azərbaycanda ordu quruculuğunun əsası qoyuldu. Və qısa bir vaxtda formalaşan Silahlı Qüvvələrimiz ön xətdə döyüş vəziyyətinin bizim xeyrimizə dəyişməsini və düşmənlə müqayisədə hərbi üstünlüyümüzün yaranmasını təmin etdi. Ulu öndərin dəfələrlə cəbhə bölgəsinə gələrək düşmənlə təmas xəttindəki döyüşçülərimizlə görüşməsi onlarda yüksək əhval-ruhiyyənin, rəhbərə, dövlətə inam hissinin yaranmasına gətirib çıxardı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına xüsusi önəm verən rəhbər qısa bir zamanda ölkədə hərbi vətənpərvərlik işinin gücləndirilməsinə, təxribatçı ünsürlərin hərbi hissələrdən kənarlaşdırılmasına nail oldu.

Müdrik rəhbərin dövlətimizin ilk müstəqilliyi dönəmində ciddi əhəmiyyət verdiyi əsas məsələlərdən biri ordu quruculuğunu elmi əsaslarla inkişaf etdirmək idi. Məhz onun təşəbbüsü ilə Azərbaycanda hərbi təhsilin yaranmasına və burada milli hərbi kadrların hazırlanmasına başlandı. Bu gün fəxr hissi ilə demək lazımdır ki, müasir hərbi təhsil müəssisələri bütün qoşun növləri üzrə yüksək səviyyəli mütəxəssislər hazırlamaq imkanına malikdir.

Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində əsasını qoyduğu strategiya onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. "Güclü iqtisadiyyat güclü ordu deməkdir" prinsipinə önəm verən Prezident İlham Əliyevin siyasi fəaliyyətində ordu quruculuğu mühüm yer tutur. Bu, bir həqiqətdir ki, ölkəmizin ildən-ilə artan iqtisadi inkişaf tempi Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən qüdrətli orduya çevrilməsində mühüm rol oynayıb.

Düşünürəm ki, müstəqillik dövründə qazandığımız ən mühüm uğurlardan biri ulu öndərin rəhbərliyi ilə 1993-cü ildən başlanan ordu quruculuğu prosesinin uğurla həyata keçirilməsi və bu işin hazırda Ali Baş Komandanımız İlham Əliyev tərəfindən dahi rəhbərin adına layiq şəkildə davam etdirilməsidir. Son illər Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, maddi-texniki və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, beynəlxalq hərbi əlaqələrinin formalaşması istiqamətində qazanılmış uğurlar hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur.

Müasir dövrdə ölkə başçımızın siyasi kursuna sədaqətini ifadə edən Müdafiə Nazirliyinin rəhbərliyi orduda şəxsi heyətin qələbə əzminin formalaşması və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü islahatlar həyata keçirir. Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə ordumuzun qoşun növlərində keçirilən irimiqyaslı təlimlər Vətənimizin güclü müdafiə qabiliyyətinin bariz nümunəsi oldu. Artıq hər bir azərbaycanlı inanır ki, müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı dayağı olan Azərbaycan Silahlı Qüvvələri ümummilli liderimizin ideyalarını ləyaqətlə davam etdirərək torpaqlarımızı son qarışına qədər işğaldan azad edəcəkdir.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# İslahatlar və uğurlar qələbəmizə təminatdır





***Artıq 2014-cü ilin tarixə qovuşmasına bir aydan da az vaxt qalıb. Cari ildə respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatının bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da mühüm əhəmiyyət kəsb edən quruculuq işləri həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə orduda aparılan islahatlar vahid bir məqsədə - Vətənimizin hərbi qüdrətinin daha da möhkəmlənməsinə yönəldilib.***

Son bir ildə də ölkəmizin ordu quruculuğu strategiyasında önəm verilən əsas məsələlər Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltmək, həmçinin sosial-məişət şəraitini yaxşılaşdırmaqdan ibarət olub. Əlbəttə, torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsi ordu quruculuğunun əsas prioritetidir. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantısında proqram xarakterli çıxışı zamanı qeyd etmişdi ki, orduda şəxsi heyəti vahid bir vəzifənin - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin yerinə yetirilməsinə səfərbər etmək və əsgəri xidmətdə olan gəncləri sabahkı cəmiyyətimizin fəal vətəndaşları kimi hazırlamaq komandir-zabit heyətinin qarşısında dayanan həlledici vəzifədir. "Hər bir komandir, zabit unutmasın ki, bu gün tabeliyində xidmət edən əsgərləri həm Vətənimizin bacarıqlı, vətənpərvər döyüşçüləri, həm də gələcəyin layiqli vətəndaşları kimi tərbiyə etmək onun ən ümdə vəzifəsi və müqəddəs borcudur", - deyə Müdafiə naziri bildirmişdi.

Ümumiyyətlə, son bir ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, nazirin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun və ordunun başqa rəhbər nümayəndələrinin cəbhə xəttinə ardıcıl səfərləri şəxsi heyətin döyüş əhval-ruhiyyəsinin yüksəlməsinə zəmin yaradıb. Doğrudan da, səngərdə döyüş növbətçiliyini həyata keçirən əsgəri ziyarət etmək, onun arzularını, problemlərini öz dilindən eşitmək döyüşçüyə xoş ovqat aşılayan əsas amillərdəndir. Yadımdadır, bir dəfə Tovuz bölgəsində ezamiyyətdə olanda "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif edilmiş bir döyüşçümüzdən yazı hazırlayırdım. Öyrəndim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov müddətdən artıq hərbi xidmət qulluqçusuna bu yüksək mükafatı döyüş postunda şəxsən təqdim edib. Uzun müddət bu xoş hadisənin doğurduğu hissləri yaşamış döyüşçünün gözlərində bir qığılcım duyurdum. Bu, ordu rəhbərinin öz əsgərinə diqqət və qayğısından yaranmış sevinc işartısı idi. Medallı döyüşçü söhbətimizin sonunda vurğulamışdı ki, zəhmətinə verilən dəyərə cavab olaraq hərbi xidmətində məsuliyyət hissini daha da artıracaq və göstərilən yüksək etimadı doğrultmaq üçün əlindən gələni əsirgəməyəcəkdir.

Yola salacağımız 2014-cü il avqust hadisələrinin doğurduğu hisslərlə də yadda qalacaqdır. Məlum olduğu kimi, avqustun əvvəlində erməni təxribatçı qrupları bir neçə istiqamətdə təmas xəttini keçərək mövqelərimizə hücum etmişdilər. Bu döyüşlərdə hərbi qulluqçularımız əsl fədakarlıq və rəşadət nümayiş etdirdilər. Doğrudur, itkilərimiz oldu, doğulduğu Vətəni uğrunda son damla qanını belə əsirgəməyən qəhrəman oğullar xalqın izdihamı ilə dəfn edildi. Azərbaycan xalqı öz şəhidlərinə dərin hörmət və ehtiramını bildirdi. Həmçinin, şəhid döyüşçülərə Müdafiə nazirinin əmri ilə dövlət mükafatı təqdim edildi, nazirliyin yüksək rütbəli zabitləri onların dəfn mərasimlərində iştirak edərək şəhid ailələrinə dərin hüznlə başsağlığı verdilər.



Avqust hadisələrini dərindən xatırlatmaqda əsas məqsədim həmin günlərdə ordu və xalqın güclü birliyini, millətin şəhid övladlarına sonsuz ehtiramını və cəmiyyətdə Silahlı Qüvvələrimizə yaranan inam hisslərini ifadə etməkdir. Azərbaycan əsgərinin düşmən üzərindəki qələbəsindən ruhlanan minlərlə vətəndaşımız həmin günlərdə ordu sıralarına qatılmaq və döyüşlərə yollanmaq istəklərini bildirirdi. Müdafiə nazirinin ünvanına müxtəlif bölgələrimizdən, qardaş Türkiyədən və başqa ölkələrdə yaşayan soydaşlarımızdan çoxsaylı müraciətlər daxil olurdu. Qızmar avqust günlərində bir daha yəqin etdik ki, xalqın qələbəyə olan inamını heç bir qüvvə sarsıda bilməz.

Bu il ərzində Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrinin müasir silah və hərbi texnika ilə təmin edilməsinə önəm verilməklə yanaşı, müxtəlif qarnizonlarda hərbi qulluqçuların sosial-məişət şəraitini yaxşılaşdırmaq üçün əsaslı tədbirlər görülüb. Yeni və müasir əsgər kazarmaları, hərbi qulluqçuların sosial ehtiyaclarını ödəmək üçün yataqxana və xidməti yaşayış evləri tikilərək istifadəyə verilib. Bir həqiqəti xüsusi vurğulamq lazım gəlir ki, ötən qısa müddətdə cəbhə xəttində döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətin keyfiyyətli qidalanmasını və zəruri məişət qayğılarını həll etmək üçün az işlər görülməyib. Artıq ordunun təsərrüfat-məişət işləri əsasən peşəkar mülki vətəndaşlara həvalə edilir. Həmçinin on mindən artıq təcrübəli gənc müddətdən artıq hərbi xidmətə qəbul olunub ki, bütün bunlar da orduda şəxsi heyətin döyüş vərdişlərinin artırılmasına zəmin yaradır.

Ölkədə hərbi təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər isə gələcəyin zabit kadrlarının peşəkarlıq səviyyəsinin yüksəlməsinə imkan verir. Müdafiə naziri yeni hərbi xidmətə təyin edilən gənc zabitlərlə görüşlərində həmişə onlara dəyərli tövsiyə və tapşırıqlarını bildirərək bəyan edib ki, Azərbaycan zabiti Vətənə xidməti ömrünün mənası hesab etməli və tabeliyindəki şəxsi heyəti milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edərək onlara Vətənə sədaqət hissləri aşılamalıdır. "Bu gün ordu sıralarında hərbi xidmətə başlayan gənc zabitlərimiz yaxşı bilməlidirlər ki, onlara ən müqəddəs vəzifə - torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün qorunması etibar edilir", - deyə general-polkovnik Zakir Həsənov gənc zabit heyətinin nümayəndələri ilə görüşlərində bəyan edib.

Son bir ilə nəzər salanda, doğrudan da, ölkəmizin müdafiə potensialının gücləndirilməsi məqsədilə həm dövlət rəhbərliyi, həm də Müdafiə Nazirliyi tərəfindən əhəmiyyətli işlərin görülməsinə şahid oluruq. Söz yox ki, bu islahatlar və uğurlar xalqın öz ordusuna, öz əsgərinə inam və etibarını artırmaqla bərabər, düşmən üzərində böyük qələbəmizə zəmanət verir.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Dekabrın 1-dən 5-dək Ankara şəhərində (Türkiyə) böhranlara cavab əməliyyatları üzrə qərargah zabiti kursu; dekabrın 1-dən 26-dək Konya şəhərində (Türkiyə) kimyəvi, bioloji, radioloji və nüvə silahlarından müdafiə üzrə zabit kursu; dekabrın 2-dən 5-dək Bakı şəhərində vəzifədə irəliləmə və attestasiya komissiyasının tətbiqi mövzusunda seminar; dekabrın 2-dən 11-dək Qarmış-Partenkirxen şəhərində (Almaniya) dil standartları və qiymətləndirmə mövzusunda seminar keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 2-də Füzuli rayonunun Aşağı Veysəlli kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Yevgeni Şarov və Saymon Tiller keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***30 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 52 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Novruzlu, Şıxlar, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***1 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 90 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Berkaber və Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Bala Cəfərli kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Novruzlu, Şıxlar, Şuraabad, Mərzili, Baş Qərvənd, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***2 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 43 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen və Berkaber, Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı və Qaymaqlı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Cəvahirli, Mərzili, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Hər birindən qürur duyulan döyüşçülər



Həmişə təsadüf elə gətirirdi ki, Haramı düzünə gəlişim yaz aylarına, təbiətin oyandığı, qanın damarlarda coşduğu vaxtlara təsadüf edirdi. Həmin çağlarda təbiətin gözəlliyini seyr etməkdən doymaq olmurdu. Onda elə zənn edirdim ki, Haramı düzünün yalnız elə yazı gözəldir. Bir-birinə bənzəyən yaşıl təpələr, göz işlədikcə uzanıb gedən çöllər adama sanki təzə nəfəs gətirirdi. Amma budəfəki gəlişim payız fəslinə düşmüşdü. Ətrafa göz gəzdirəndə hər tərəfi gözəlliklər içində gülümsəyən gördüm. Sən demə, Haramı düzünün payızı da gözəl imiş.

Payızın gözəlliyindən zövq alan ürəyim, xoş notlar üstündə köklənmişdi. Elə bu ovqatla da torpaqlarımızı erməni işğalçılarından qoruyan zabit və əsgərlərin görüşünə yollandım. İlk olaraq zabit Xalid Məmmədovla görüşdüm. Söhbət zamanı öyrəndim ki, zabit irimiqyaslı təlimdən yenicə qayıdıb. O, iştirakçısı olduğu təlimdən qısaca söhbət açaraq bildirdi ki, şəxsi heyətin uğurlarını gördükcə qələbənin yaxınlıqda olduğunu hiss edir. "Həmişə olduğu kimi əsgərlərimiz bu təlimdə də peşəkarlıq göstərərək hədəfləri dəqiq vurdular. Bütün bunlar isə ordumuzun döyüş hazırlığının gündən-günə artdığını sübut edir".

Qərargahda çox ləngimədən zabitlər Eldəniz Gözəlovla və Anar Binnətəliyevlə birlikdə ön xəttə yollandıq. Günəşin qürub etməsinə hələ xeyli var idi. Qaranlıq düşənə qədər gecəli-gündüzlü torpaqlarımıza keşik çəkən zabit və əsgərlərin yanına gedib çata bilərdik. Avtomobili zabit Anar Binnətəliyev idarə edirdi. Söhbət zamanı öyrəndim ki, o, xeyli müddətdir ön xətdə xidmət edir. Yolları yaxşı tanıdığından avtomobili məharətlə idarə etməyinə söz ola bilməzdi. Hansı istiqamətə gedəcəyimizi dəqiq bilirdi. Hamısı bir-birinə oxşayan torpaq yolları, cığırları çox yaxşı tanıyırdı. Hər addımda hiss edirsən ki, zabit gecə-gündüz yollardadır, səngərdədir. Mövqeləri gəzib dolanır, əsgərlərlə görüşür, lazımi məsləhət və tövsiyələr verir. Məhz elə buna görə də hərbi hissədə hamı ona "Haramı düzünün qartalı" - deyir.

Torpaq yollar arxada qaldıqca ön mövqeyə, səngərlərə yaxınlaşırıq. Zabit Eldəniz Gözəlov da uzun illərdir ki, ön xətdə xidmət edir. Bu hərbi hissəyə yenicə təyin olunub.

- Zabit və əsgərlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığı yüksəkdir, - deyə E.Gözəlov bildirdi. - Hər bir əsgərin sinəsində doğma Vətənə istəkdən, məhəbbətdən yoğrulmuş ürək döyünür. İnanıram ki, bu ürək onları qələbəyə aparacaq. Əsgərlərimiz doğma yurdumuzun keşiyində həmişə ayıq-sayıq dayanırlar. Düşmən atəşkəs rejimini pozmağa cəhd göstərən kimi döyüş hazırlığı yüksək olan əsgərlərimiz qısa vaxtda dəqiq atəş zərbələri ilə onları susdururlar. Hər addımda əsgərlərimizin düşməndən üstün olduğu hiss olunur.

Üzü dağlara tərəf getdikcə hava soyuyur. Günəş yavaş-yavaş qüruba enir. Maraqlı söhbət yolumuzu qısaldır. Artıq barıt qoxulu səngərlərə, təmas xəttinə gəlib çatırıq. Yüksək bir təpənin üstü ilə dərin səngər qazılıb. Qoynunda dünyaya göz açdıqları yurda ürəkdən, qəlbən bağlı olan zabit və əsgərlərin xidməti burada keçir. Onlar buradan düşmən istiqamətində müşahidələr aparır, qarşılarında dayanan mühüm tapşırıqları yerinə yetirirlər.

Döyüşçülər bizi gülərüz qarşıladılar. Onların üz-gözündən igidlik, cəsurluq yağırdı. Qısa tanışlıqdan sonra



səngərlərə yollandıq. Səngərlər dərin və geniş qazıldığından burada hərəkət etmək elə də təhlükəli deyildi. Müşahidə məntəqələrinin birində dayanan əsgər Ozal İbadov bildirdi ki, babalarımızdan bizlərə miras qalmış torpaqları göz bəbəyimiz kimi qorumağa çalışırıq. "Daim erməni mövqelərini müşahidə edirəm. Hələlik elə bir dəyişiklik qeydə alınmayıb". Öyrənirəm ki, əsgərin xidmətinin xeyli hissəsi arxada qalıb. Bu günə qədər o yaddaqalan bir xidmət yolu keçib.

Səngər boyu baş leytenant Natiq Xanışov bir-bir əsgərlərlə bizi tanış edir. Onların xidmətindən razılıqla danışır. Hər biri ilə ayrı-ayrılıqda tanış olub söhbət edirəm. Xidmətləri ilə qürur duyulan əsgərlərin qartal baxışları, cəsur olmaları diqqətimdən yayınmır. Silahlarını döyüş vəziyyətinə gətirmiş əsgərlər hər an torpaqlarımızı qorumağa hazırdırlar. Bu cəsur oğullarla söhbət etdikcə dəftərçəmin ağ səhifəsinə yeni adlar düşür, yeni ünvanlar yazılır. İndi oturub bu qeydlərə baxdıqca onları xatırlayıb adlarını kompüterin yaddaşına köçürürəm. Tanış olun, budur həmin cəsurlar: Sahil İsmayılov, Təbriz İsayev, Rais Əliyev, Emin Əliyev, Fəqan Məmmədov, Tale Mürşüdzadə, İsrafil İsayev və başqaları. Bu oğullar yaxşı bilirlər ki, xalqımız Vətən torpaqlarını qorumağı onlara tapşırıb.

Səngərboyu xeyli irəli getdik. Müşahidə məntəqəsindən düşmənin nəzarət etdiyi ərazilərə baxdıq. Heç kəs gözə dəymir, qəsbkarlar tülkü kimi orda-burda gizləniblər. Zabitlər Anar Binnətəliyev və Eldəniz Gözəlov da əsgərlərlə söhbət edir, müvafiq göstəriş və tapşırıqlarını verir, hər kəsin fikirlərini öyrənirlər. Hava çox qaralmamış bu cəsur oğulların şəkillərini də çəkdim. Çəkdim ki, qoy xalqımız yurdumuzu qoruyan oğullarımızı yaxından tanısın. Sağollaşıb ayrılarkən əsgərlər bildirdilər ki, həmişə yurdumuzun keşiyində ayıq-sayıq dayanacaq, torpaqlarımızı erməni qəsbkarlarından azad etmək üçün döyüşə hazır olacaqlar.

Artıq yavaş-yavaş hava qaralır. Bir azdan ətrafa zülmət qaranlıq çökəcək. Amma çox gözəl deyiblər ki, hər zülmət qaranlığın işıqlı sabahları var. Əsgərlərimizə işıqlı sabahlar arzusu ilə onlardan ayrılıram.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Tibb xidməti

# Müasir dövrün qorxunc xəstəliyi

## Hərbi tibb fakültəsində ebola virusuna aid elmi konfrans keçirilib



***Bu günlərdə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində "Ebola virusu - bəşər tarixinin ən qəddar virus xəstəliyi" mövzusunda elmi konfrans keçirilib. Konfransda hərbi tibb fakültəsinin müəllim, rezident və tələbə heyəti iştirak edib. Konfransın işini uğurla həyata keçirmək məqsədi ilə təşkilat komitəsi yaradılıb. Hərbi tibb fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb elmləri namizədi, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yoluxucu xəstəliklər bölməsinin rəisi, tibb xidməti polkovniki Azər Nağıyev və fakültənin tibbi profilaktika kafedrasının rəisi tibb xidməti polkovniki Fərhad Meybalıyev təşkilat komitəsinin üzvləri seçilib.***



Öncə konfransı giriş sözü ilə Silahlı Qüvvələrin baş cərrahı, tibb xidməti polkovniki Famil Babayev açaraq mövzuların aktuallığı barədə məlumat verib: "Təhlükəli ebola virusu dünyanı təhdid etməkdə davam edir. Beynəlxalq Səhiyyə Təşkilatlarının çarəsiz durumda qaldığı bir vaxtda ebola sərhəd tanımadan daha geniş coğrafiyaya yayılmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatı ebola virusunun yayılmasını beynəlxalq miqyasda fövqəladə hal kimi elan edib. Bu virusa yoluxanların sayı durmadan artır. Virusun Azərbaycanda yayılmasının qarşısını almaq məqsədi ilə Səhiyyə Nazirliyi profilaktik tədbirlərin keçirilməsi barədə əmr imzalayıb", - deyə tibb xidməti polkovniki bildirib.

Sonra tibb xidməti polkovniki Azər Nağıyevin "Virus mənşəli hemorragik qızdırmalar" mövzusunda məruzəsi dinlənilib. A.Nağıyev dünyada zaman-zaman rast gəlinən virus mənşəli hemorragik qızdırmalar barəsində geniş məlumat verərək, onların müayinə və müalicə prinsipləri haqqında söhbət açıb: "Hemorragik qızdırmalar qruppası - patogenezində trombohemorragik sindroma səbəb olan damarların zədələnməsi ilə xarakterizə edilən virus mənşəli qızdırmalardır. Mövsümünə görə daha çox yay aylarında rast gəlinən xəstəlikdir".

Elmi konfrans tibb xidməti polkovniki Azad Məmmədovun "Ebola virusu tərəfindən törədilən xəstəlik" mövzusunda məruzəsi ilə davam edib. Onun ebola virusu haqqında araşdırmaları tədbir iştirakçılarında maraq doğurub. Məruzəçi bildirib ki, ebola virusu Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bəşər tarixinin ən qəddar virus xəstəliyi adını alıb. Bu virusun beş müxtəlif tipi var. Yoluxanların həyatda qalma şansı 25%-dən 90%-dək dəyişir. Çox təəssüf ki, hazırda ebola virusuna qarşı heç bir təsdiq edilmiş peyvənd növü mövcud deyil. Bu virus tərəfindən törədilən xəstəlik əksər hallarda ölümlə nəticələnir.

Tibb xidməti polkovnik-leytenantı Fərhad Meybalıyevin "Kontagioz hemorragik qızdırmalarda əks-epidemik tədbir" adlı məruzəsində isə epidemiyanın yayılma səbəbləri, virusun ilkin və növbəti mərhələlərdə xarakterik əlamətləri, profilaktikası və s. haqqında ətraflı məlumatlar verilib. O qeyd edib ki, xəstəliyin yayılmasında çox mühüm məqam var. Xəstənin ilkin mərhələdə 3 həftəyə kimi qorxulu olması mümkündür. Bu müddətdə xəstə yoluxdurucu olur və ətrafdakı insanları yoluxdurur. Bundan sonra zəncirvari proses davam edir. Həmin yoluxan insan da növbəti 3 həftə ərzində digər insanları yoluxdura bilər. Ona görə də bu xəstəliyin profilaktikasında virusa qarşı əks epidemik tədbirlərin aparılmasına ciddi nəzarət edilməlidir.

Sonra mövzular ətrafında geniş müzakirələr aparılıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Xəbərlər:

hadisələr, faktlar

### Roma Papasının Türkiyə səfəri başa çatıb



Roma Papası Fransiskin üç günlük Türkiyə səfəri başa çatıb. İstanbula gələn papanı pravoslav patriarxı Varfolomey qarşılayıb. AzərTAc Cihan agentliyinə istinadla xəbər verir ki, Roma papası İstanbul müftisi Rəmi Varanın müşayiəti ilə ilk olaraq Sultan Əhməd məscidinə gələrək dua edib. O, noyabrın 30-da axşam saatlarında İstanbuldan Vətəninə yola düşüb.

Roma Papasını Atatürk Hava Limanından rəsmi şəxslər və din xadimləri yola salıblar.

### ABŞ-da "qara cümə" günü silah satışının kəskin artması müşahidə olunub



FTB-yə ölkənin silah mağazalarından tapança, tüfəng və digər odlu silahların satılmasına icazə verilməsi barədə saniyədə üç ərizə daxil olub. AzərTAc xəbər verir ki, büronun nümayəndəsi Stiven Fişer 144 min müraciətin qeydə alındığı əvvəlki rekordu bu "qara cümə"nin üstələyəcəyinə əmin olduğunu söyləyib. Keçən il ərzində FTB-yə 21 milyon belə ərizə daxil olub və onlardan yalnız 1,1 faizinə rədd cavabı verilib. Hazırda ABŞ əhalisinin 24 faizi odlu silaha sahibdir. ABŞ-da noyabr ayının dördüncü cümə axşamından sonrakı "qara cümə" ənənəyə görə yeni il qabağı endirimli satışların başlandığı gündür.

### ABŞ-da ümumermən i fondunun boykot olunmasını tələb edirlər



"Hayastan" ümumermən i fondunun banketi zamanı bir neçə erməni əsilli amerikalı etiraz aksiyası keçirib. Bu barədə "Armenian Report" saytı xəbər verir. Nümayişçilər iddia edirlər ki, fond rüşvətə bulaşıb və Ermənistan rəhbərliyinə hakimiyyətini qorumağa kömək edir. Onlar tədbirə gələnlərə məlumat veriblər ki, "Hayastan" 2012-ci ildə 20 milyon dollar toplayıb, halbuki Ermənistan hökuməti həmin il suiistifadə hallarına və vergilər toplanmadığına görə 750 milyon dollar zərərə uğrayıb. Nəşrin yazdığına görə, aksiyanı amerikalı jurnalist Ara Manukyan təşkil edib. Fondun Himayəçilik Şurasının sədri Serj Sarkisyandır. Şuranın üzvləri sırasında Ermənistanın sabiq prezidenti Robert Koçaryan, separatçı Dağlıq Qarabağ rejiminin rəhbəri Bako Saakyan, Ermənistanın baş naziri Ovik Abramyan, bütün ermənilərin katolikosu II Qaregin, Ermənistanın milli qəhrəmanı, ölkənin İsveçrədəki səfiri, şanson ifaçısı Şarl Aznavur da var.

### Brisben şəhəri son 30 ilin ən güclü qasırğası ilə üzləşib



Avstraliyanın Brisben şəhəri son 30 ilin ən güclü qasırğası ilə üzləşib. Şiddətli leysan və dolu, sürəti saatda 140 kilometrə çatan külək ciddi fəsadlar törədib. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, güclü külək evlərin damlarını qoparıb, çoxmərtəbəli binaların şüşələrini sındırıb. Brisbenə yarım saat ərzində təxminən bir aylıq yağıntı normasının düşdüyü, küçələrin su altında qaldığı və nəticədə ictimai nəqliyyatın fəaliyyətinin dayandığı bildirilir. Elektrik xətlərinin qırılması 90 min evi işıqsız qoyub, məktəblər və uşaq bağçaları bağlanılıb.

Hazırda qasırğanın nəticələrinin aradan qaldırılmasına ordu qüvvələri cəlb edilib.

### NATO qüvvələrinin ölkədə qalması rəsmiləşdi



Əfqanıstan hökuməti NATO qüvvələrinin ölkədə qalmasını rəsmiləşdirən sənədlərə imza atdı. Bir müddət əvvəl Əfqanıstan parlamenti Amerika əsgərlərinin 2014-cü ildən sonra ölkədəki fəaliyyətinə dair qanun layihəsini müzakirəyə çıxarmış, layihə səsvermə ilə qəbul olunmuşdu. Qanun layihəsinə əsasən, 2015-ci ildən etibarən ölkədə 12 minə yaxın NATO əsgərinin saxlaması nəzərdə tutulur.

### Nigeriyada törədilmiş terror aktı nəticəsində 120 nəfər həlak olub



Nigeriyada baş vermiş terror aktı zamanı həlak olanların sayı 120 nəfərə çatıb, 270 nəfər isə yaralanıb. Kano şəhərinin əsas məscidi yaxınlığında cümə namazı zamanı törədilən partlayışın ardından 10-a yaxın silahlı ətrafa atəş açmağa başlayıb. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, terror aktına görə məsuliyyəti hələlik heç bir qruplaşma öz üzərinə götürməyib. Hakimiyyət bu hücumu məscidin imamı olan Mərkəzi Bankın keçmiş başçısı Lamido Sanusinin çıxışı ilə bağlayır. Belə ki, Sanusi keçən həftə yerli əhalini ölkənin şimal-şərqində iyirmidən artıq şəhəri nəzarətə almış "Boko haram" qruplaşmasına qarşı silahlı mübarizəyə qalxmağa səsləmişdi.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Medallı igidlərimiz

# Arzusu qələbə ilə qayıtmaq idi



***Torpaq uğrunda şəhid olanların adları həmişə müqəddəs tutulub, şərəflə anılıb, hörmətlə xatırlanıb. Xalq cəsur oğullarının adlarını tarixin səhifəsinə böyük hərflərlə yazıb, şərəfinə heykəllər ucaldıb, abidələr qoyub. Belə oğullardan biri də Bədəlov Vüqar Baloğlan oğludur.***

O, 1973-cü il martın 3-də Bakının qədim kəndlərindən biri olan Bülbülədə dünyaya göz açmışdı. Yeddi yaşın tamamında yaşıdları ilə boy-boya verib 208 nömrəli məktəbə yollanmışdı. Məktəb illəri çay suları kimi bir göz qırpımında axıb getdi. İllərin üstünə il, yaşın üstünə yaş gəldi.

Vüqar ordu sıralarına çox təlatümlü, gərgin bir vaxtda getdi. Erməni işğalçılarının ölkəmizə qarşı hücumlarının tüğyan etdiyi, respublikamızın çalxalandığı bir vaxtda Vüqar Bədəlovu keçmiş sovet ordusunun sıralarına çağırdılar. Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda gərgin və amansız döyüşlər gedirdi. Moskvadakı xidmətini yarımçıq qoyan Vüqar 1992-ci ilin sentyabrında doğma Vətənə döndü. Ağdam bölgəsinə yollandı. Qardaşı İlqar Vüqarın geri döndüyünü və döyüşlərə getdiyini öyrənəndən sonra onunla görüşmək üçün vaxt itirmədən cəbhə bölgəsinə yollanır. Ağdama yetişəndə Vüqarın Ağdərədə olduğunu öyrənir. Qardaşlar soyuq payız günlərinin birində Ağdərədə görüşürlər. İlqar komandirdən bir neçə günlük icazə alıb qardaşını evə aparmaq istəyir. İstəyir ki, valideynləri Baloğlan ata, Səmayə ana onun üzünü görsün, səsini eşitsin, nəfəsini duysun. Amma Vüqar buna razı olmayaraq "Valideynlərimin yanına qələbə sorağı ilə qayıtmaq istəyirəm", - deyir.

Ürəyi Vətən eşqi ilə döyünən Vüqar müharibənin son gününə qədər vuruşmaq, Qarabağı erməni qəsbkarlarından azad etmək arzusu ilə yaşayırdı. Təəssüflər olsun ki, düşmənin bir atəşi onun bütün arzularını yarımçıq qoydu. 1992-ci il noyabrın 5-i onun son döyüşü, son savaşı oldu.

Yurdumuzun azadlığı uğrunda vuruşub şəhid olan Vüqarın xidməti layiqincə qiymətləndirildi. Bülbülə qəsəbəsində bir küçəyə şəhid əsgərin adı verildi. Bir vaxtlar addımladığı küçə indi onun adını daşıyır. Oxuduğu məktəbin kollektivi və şagirdləri həmişə onu hörmətlə anır, ehtiramla xatırlayırlar.

Qardaşı İlqar da Vüqarın adını ailələrində əbədiləşdirib. Oğluna Vüqarın adını verib, övladına həyatda əmisi kimi vüqarlı olmağı tövsiyə edib.

Səbirə Bədəlova ilə qardaşı haqqında söhbət etmək olduqca çətindir. Gənc yaşlarından qardaş itkisi görmüş bacı Vüqar haqqında qürurla danışır:

- Mən qardaşımla fəxr edirəm. Çünki o qoynunda dünyaya göz açdığımız Vətən torpaqları uğrunda gedən döyüşlərdə şəhid oldu. Vətəni, torpağı canından çox sevirdi. Ona görə də Moskvada xidmətini yarımçıq qoyub yurdumuzu qorumağa gəldi. Doğmaları ilə görüşmədən birbaşa cəbhə bölgəsinə, döyüşlərə yollandı. Bu, vətənpərvərlik deyilmi, bu, Vətəni sevmək deyilmi? Əgər Vətəni sevməsəydi, onu canından da çox istəməsəydi, o sovet ordusunun sıralarından evə dönərdi. Amma Vüqar evə baş çəkmədən barıt qoxulu səngərlərə tələsdi, Ağdamı, Ağdərəni erməni işğalçılarından qorumağa can atdı. Sanki anam Səmayə onu torpaqlarımızı qorumaq üçün dünyaya gətirmişdi. Vüqar böyük arzularla, ülvi amallarla yaşayırdı. Amma təəssüflər olsun ki, ömrü kimi arzuları da yarımçıq qaldı.

Səbirə xanımın iki gül balası - iki oğlu var. Onlar tez-tez anaları ilə dayılarının məzarını ziyarət edir, qəbrinin üstünə gül-çiçək dəstələri qoyurlar. İgidlikdə, qəhrəmanlıqda dayıları Vüqara oxşamaq istəyirlər.

Vətənimizin azadlığı və müstəqilliyi uğrunda şəhid olmuş döyüşçünün igidliyi layiqincə qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə əsgər Bədəlov Vüqar Baloğlan oğlu ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

Qabaqcıl təcrübə

# "Hər kəs özündə məsuliyyət hiss etməlidir"

***Hərbi hissələrdə və birləşmələrdə olduğu kimi, hərbi təhsil ocaqlarında da şəxsi heyət qabaqcıl təcrübədən yararlanır. Göründüyü kimi, qabaqcıl təcrübənin xidmətdə tətbiqi öz müsbət nəticələrini göstərir.***



C.Naxçıvanski adına Hərbi Liseydə yeni tədris ilinin planında nəzərdə tutulan qabaqcıl təcrübə səmərəli pedaqoji fəaliyyətə, kursantların davranış və nizam-intizam qaydalarında müvəffəqiyyət əldə etmələrinə güclü zəmin yaradır. Gələcək zabitlərin təlim-tərbiyəsində qabaqcıl təcrübədən ustalıqla bəhrələnən, peşəkarlığı ilə seçilən hərbi rəhbər Şakir Əhmədovla kursantları ilə söhbət apararkən görüşdük. Taqımın heyəti Şakir müəllimin ətrafına toplaşmışdı. Kənardan maraqlı diskussiyanın aparıldığı hiss olunurdu.

Məlumat üçün bildirim ki, Şakir Məhəmməd oğlu Əhmədov 1963-cü ildə anadan olub. O, ehtiyatda olan polkovnik-leytenantdır. 1977-1980-ci illərdə C.Naxçıvanski adına ibtidai hərbi məktəbdə, 1980-1984-cü illərdə isə Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbində təhsil alıb. 1986-1987-ci illərdə Əfqanıstanda keçmiş Sovet ordusuna məxsus 70-ci motoatıcı briqadada kəşfiyyat taqımının komandiri vəzifəsində xidmət edib. Sağlamlığını da Əfqanıstan müharibəsində itirib. Ş.Əhmədov 2 dəfə "Qırmızı Bayraqlı Döyüş" ordeni, "Şəxsi şücaətə görə" medalı ilə təltif olunub. 14 orden və medalın sahibidir. Silahlı Qüvvələrin veteranıdır.

1988-ci ildə Ermənistan-Azərbaycan münaqişəsi, Sumqayıt hadisələri başlayanda, doğma Azərbaycanın başı üzərini qara buludlar alanda, Vətənə dönməyə qərar verib. Moskva şəhərində rahatlığını buraxaraq Bakıya köçüb. Döyüşçü zabit kimi müstəqil Azərbaycanın ordu quruculuğunda iştirak edib.

Düz 30 ildən sonra, 2010-cu ildə vaxtilə təhsil aldığı məktəbdə hərbi rəhbər - tərbiyəçi müəllim vəzifəsinə təyin olunub. Ş.Əhmədov söhbətimizdə bildirdi ki, mən də bu məktəbin məzunuyam. Məktəbdə kursantların, gələcəyin zabitlərinin yetişməsində tərbiyəçi müəllimin başlıca rolunun hansı prinsiplərdən təşkil olunmasını yaxşı bilirəm. Əvvəl rəhbərlik etdiyim taqım 3 il, 2010-2013-cü illərdə kursun birincisi olub. Taqımın yeni toplanan kursant heyəti növbəti dərs ilində də kursun birincisi seçilib. Hazırda 3 aya yaxındır ki, lisey komandanlığı ən zəif göstəricisi olan taqımı mənə həvalə edib. Artıq taqımda irəliləyişlər müşahidə olunur.

- Qabaqcıl təcrübəni fəaliyyət proqramınızda hansı tərbiyə üsul və metodlardan istifadə etməklə müəyyənləşdirirsiniz? - deyə Şakir müəllimdən soruşuram.

- Gənclərin çağırışaqədərki hazırlığı, müstəqil hazırlığı mənim nəzarətimdə olur, - deyə müsahibim bildirir. - Onların mənəvi-psixoloji hazırlıqlarını ayrı-ayrı, fərdi şəkildə ciddi yoxlayıram. Həm müəllim, həm də bir ata kimi hər bir kursantla söhbət apарıram. Onlar məni müəllim yox, həm də doğma, əziz adamları kimi qəbul edirlər. Hər birinin problemləri ilə maraqlanır, çətinlikləri varsa, həllinə çalışıram. Kursantları həyatda və xidmətdə lider olmağa çağırıram. Hər bir zabitin xarakterində bu vacib xüsusiyyət formalaşmalıdır. Mən hərbi rəhbər olaraq Azərbaycanın gələcəyi naminə zabit kadrların hazırlanması üçün öz köməyimi əsirgəmirəm. Öz işində müasir metod və üsullara önəm verən tərbiyəçi müəllimin dəyərli məsləhətləri, tövsiyələri kursantların gələcək inkişafını düzgün istiqamətləndirir.

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# Tələbkar zabit

***Həyatda pis sənət yoxdur, bacarıqsız işçi var, - deyimi heç də təsadüfdən yaranmayıb. Uzun illərin sınağından keçən bu fikir bütün dövrlərdə öz aktuallığını qoruyub saxlayır. Hər bir sahədə olduğu kimi, ordu sıralarında da qabaqcıl təcrübəyə geniş yer verilir. Belə ki, manqa, heyət komandirləri, həmçinin, mahir atıcı, bacarıqlı sürücü, döyüşçü, təmirçi-çilingər və qeyd etmədiyim bir çox peşələr vardır ki, burada, sözün əsl mənasında, peşəkarlar çalışırlar.***

Bu günlərdə "N" hərbi hissəsində olanda zabit İsimxan Əliyev tabeliyində olan qabaqcıl komandirlərdən biri - kapitan Məhəmməd Əliyevin adını çəkdi. Bildirdi ki, onun tabeliyindəki heyətlər həmişə təlimlərdə və ixtisas hazırlığı üzrə keçirilən yarışlarda öndə olurlar. Bunun sirrini zabit İ.Əliyev bölmə komandirinin yiyələndiyi ixtisas üzrə mükəmməl hazırlığında və peşəsinə olan sonsuz marağında görür. Onun iş təcrübəsini tez-tez digər komandirlərə də örnək göstərirlər.

Bacarıqlı, öz işini mükəmməl bilən əsgər və zabitlərin əməyi, qabaqcıl təcrübəsi niyə görə də təbliğ olunmasın? Təcrübəli komandirlərin və peşə sahiblərinin əldə etdikləri nailiyyətlər hər bir əsgərdə xidmətə maraq oyadır.

Hərbi xidmətdə işgüzar keyfiyyətlərinə görə tanınan kapitan M.Əliyevin xidmət yerinə gəlirik. Hələ zabit F.Əsədovla onun bölməsinə yaxınlaşanda, aralıda bir qrup əsgərin toplaşıb məşğələ keçdiyi diqqətimi çəkdi. Zabit bildirdi ki, dərs keçən əsgərlər kapitan M.Əliyevin tabeliyindədirlər. Bacarıqlı zabitin tabeliyində olan hər bir əsgər daim bilik və bacarıqlarını artırmağa çalışır. Əsgərlər yaxşı bilirlər ki, bu cür təlim-məşqlər onlarda döyüş hazırlığının artırılmasına zəmin yaradır.

Bir azdan ucaboy, qarayanız zabit hərbi qaydada yaxınlaşıb özünü təqdim edir. Məlum oldu ki, bayaqdan söhbət açdığımız kapitan M.Əliyevdir. İlk baxışdan onun necə bacarıqlı və işgüzar zabit olduğunu müəyyən etmək olur. 2005-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. O, sözünə davam edərək deyir:

- Yaxşı yadımdadı, orta məktəbdə oxuyanda zabit olmaq arzusuna düşmüşdüm. İstəyim gerçəkləşməyincə bunu heç kimə deyə bilmirdim. Bütün varlığımla zabit olmağa can atırdım. Çox sevinirəm ki, Azərbaycan Ordusunun zabitiyəm. İlk gündən qarşıma məqsəd qoymuşam ki, bu sahədə özümü tamamilə doğruldum. Bunun üçün bütün imkanlardan lazımınca istifadə etməyə çalışıram.

Əlbəttə, kapitan M.Əliyev kimi işgüzar, vəzifəsinə tələbkar olan bölmə komandirinin iş təcrübəsi hər kəs üçün nümunə ola bilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi liseydə tədbir



***C.Naxçıvanski adına Hərbi Liseydə "Ərazi uğrunda gedən döyüşlərdə hərbi hissələrin göstərdikləri nümunələrin təbliği" mövzusunda tədbir keçirilib.***

Tədbirdə liseyin kursantları, professor-müəllim heyəti və dəvət olunmuş qonaqlar iştirak ediblər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və azadlığı uğrunda döyüşlərdə həlak olan Vətən övladlarının əziz xatirəsini yad edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, döyüş əməliyyatlarının aparılması, əsgər və zabitlərin şücaəti, xalqımızın mübarizə ruhu haqqında görüş iştirakçılarına məlumat verib.

O, Kəlbəcər rayonu istiqamətində aparılan qanlı döyüşlər barədə xatirələrini bölüşüb, Vətənin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş insanların qəhrəmanlıqları, Qarabağın azadlığı, milli istiqlaliyyət yolunda həyatından keçən və şəhidlik zirvəsinə yüksələn Vətən övladlarının adlarının həmişə tarixdə qalacağını vurğulayıb.

Çıxış edənlər belə tədbirlərin gənclərin vətənpərvərlik tərbiyəsində əvəzsiz rola malik olduğunu diqqətə çatdırıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**




# Ordumuzun giziri qardaş Türkiyədə müalicədən qayıdıb

***Adətən mötəbər beynəlxalq yarışlardan qələbə ilə qayıdan pəhləvanlarımızı paytaxtımızın hava limanında kütləvi informasiya vasitələrinin nümayəndələri təmtəraqla qarşılayırlar. Bu dəfə isə çoxsaylı media təmsilçiləri ordumuzun döyüşçüsünü qarşılamağa gəlmişdilər. Vətən oğlunu qarşılayanlar arasında həmçinin Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndələri də vardı.***

Qardaş ölkədə müalicə kursu keçmiş gizir Ədalət Məmmədov noyabrın 29-da axşam saatlarında təyyarə ilə Vətənə qayıdıb. Gizir Məmmədov daha iki yaralı hərbçimizlə avqustun 9-da Türkiyəyə müalicəsini davam etdirmək üçün göndərilmişdi.

Üç aya yaxın müalicədən sonra Bakıya dönən gizir Məmmədov Binə hava limanında jurnalistlərlə qısa söhbətində Türkiyədə yaxşı müalicə aldığını, hazırda özünü gümrah hiss etdiyini bildirən Ə.Məmmədov deyib: “Göstərilən yüksək diqqət və qayğıya görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və xalqımıza təşəkkür edirəm”.

Yaralı döyüşçümüz Türkiyəyə gedərkən qardaşı Vilayət Məmmədov onu müşayiət etmişdi və onunla da qayıtmışdı. Ədalətin müalicəsilə bağlı onun da fikrini öyrəndik.

- Sağ olsun dövlətimizi, millətimizi ki, qardaşıma dayaq durdular, onun müalicəsi üçün əllərindən gələni etdilər, - Vilayət bildirdi. - Demək olar ki, qardaşımı həyata, ailəmizə təzədən qaytardılar. Türkiyə dövlətinə də ailəmiz adından minnətdarlığımı bildirirəm. Ədalətin müalicəsi çox səmərəli keçdi. Türkiyənin həkimləri ilk gündən Azərbaycan döyüşçüsünü mehribanlıqla qarşıladılar və müalicəsinə diqqətlə yanaşdılar.

Allah hamısından razı olsun.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

# Bursada keçirilən konfransda Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərdən danışılıb

Heydər Əliyev Fondunun Türkiyə nümayəndəliyinin təşkilatçılığı ilə Bursa şəhərindəki Uludağ Universitetində keçirilən altıncı beynəlxalq elmi konfrans "Geosiyasətin qayıdışımı? Genişləndirilmiş bölgələrdə fəal diplomatiya zamanı" mövzusuna həsr olunub.

Universitetin foyesində ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti barədə kitablar, elmi və tarixi mövzulardan bəhs edən jurnallar, Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinə dair nəşrləri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dinamik inkişafını əks etdirən əyani vəsaitlər sərgilənib.

Fondun Türkiyə nümayəndəliyinin əməkdaşı Ramil Ağazadə bildirib ki, Azərbaycan, Rusiya, İran, Bolqarıstan, Əlcəzair və Hindistandan yüzdən çox alimin çıxış etdiyi konfransda Türkiyənin müxtəlif ali məktəbləri və beyin mərkəzlərindən tanınmış şəxslər iştirak ediblər.

Konfrans çərçivəsində professor Hayati Aktaşın sədrliyi ilə "Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq miqyası" mövzusunda seminar keçirilib. Professor Reha Yılmazın Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Azərbaycan-Türkiyə neft və qaz boru xətlərinin Qafqazın geosiyasi və enerji təhlükəsizliyi baxımından əhəmiyyəti mövzularında məruzələri maraqla qarşılanıb. Dağlıq Qarabağın qədim Azərbaycan ərazisi olduğunu elmi mənbələrlə, tarixi faktlarla əsaslandıran məruzəçi münaqişənin yaranma səbəbləri, ağır nəticələri və s. məqamları seminar iştirakçılarının diqqətinə çatdırıb.

Üç gün davam edən konfransda "Qara dəniz-Şərqi Avropa, Orta Asiya-Qafqaz, Orta Şərq-Şimali Afrika bölgələrinin dünyadakı enerji təhlükəsizliyinə təsiri", "Neft və qaz boru xətlərinin geosiyasəti", "Regionlardakı böhranlar və münaqişələrin həlli yolları" və s. mövzularla bağlı məruzələr dinlənilib.

**AzərTAc**

*Məişət xidməti*

# Məişət-təsərrüfat fəaliyyəti peşəkarların nəzarətindədir



***Son vaxtlar orduda aparılan islahatlar nəticəsində əsgərlərin məişət şəraiti tamamilə yaxşılaşdırılıb. Hərbi hissələrə ezamiyyətimiz zamanı bunların şahidi oluruq.***

Yeni kazarmalar, əsgər yeməkxanaları, hamam və camaşırxanalar tikilərək şəxsi heyətin istifadəsinə verilir. "N" hərbi hissəsində olarkən ən son avadanlıqlarla təchiz edilmiş camaşırxana ilə tanışlığa imkan tapdıq. Burada demək olar ki, əl əməyindən istifadə olunmur. Camaşırxana tamamilə avtomatlaşdırılmış sistemdə işləyir.

Camaşırxana rəisi çavuş Sabit Məmmədovun sözlərinə görə, bütün şəxsi heyətin yataq dəstləri, alt isti paltarları bölmələr tərəfindən vaxtında buraya təhvil verilir. Təmiz yuyulur, ütülənir və çeşidlənib anbara yığılır. Yenə də anbardan bölmələrə təhvil verilir. Çavuş işçilərin qadınlardan ibarət olduğunu və qadın səliqə-sahmanının vacibliyini vurğuladı.





Operator Sevda Həsənova söhbət zamanı 2010-cu ildən camaşırxanada işlədiyini bildirir. Quruducu və ütüləyici maşınların operatoru vəzifəsində işləyən S.Həsənova mülki həyatda da kifayət qədər təcrübə toplayıb. Əvvəllər başqa sahələrdə çalışsa da, lakin əsgərlərin xidmətində durmağın daha şərəfli olduğunu bildirir. O, işlərinin nə dərəcədə vacib və əhəmiyyətli olmasından söz açır.

- Camaşırxanada mənimlə birgə Mehriban Qurbanova, Zəminə Dəmirova, Zəminə Həmzəyeva və başqaları da çalışır. Hər birimiz əsgərlərimizi təmiz və səliqə-sahmanlı yataq dəstləri və geyimlə təmin etmək üçün əlimizdən gələni əsirgəmirik.

Hər kəs bilməlidir ki, ordumuz inkişaf edir və diqqət mərkəzindədir. Əsasən də övladları hərbi xidmətdə olan valideynləri əmin etmək istərdik ki, əsgərlərimizin yeməklərindən tutmuş, yataq yerlərinə qədər hər bir məişət-təsərrüfat fəaliyyəti peşəkarların nəzarətindədir. Bir sözlə, əsgərlərimizin rahatlığı etibarlı əllərdədir...

**Leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", fotolar P.NAMİQİNDİR**

## İdman

### "Olimpi Azzurra": Ceyran və nar "Bakı-2015"-in rəsmi rəmzləridir



İtaliyanın məşhur "Olimpi Azzurra" idman saytında "Bakı-2015" ilk Avropa Oyunlarının ceyran və narı ilk dəfə keçiriləcək idman tədbirinin rəsmi rəmzləri kimi təqdim etməsi ilə bağlı məqalə yerləşdirilib. Müəllif bildirir ki, ceyran Qafqaz dağlarından tutmuş Xəzər dənizinin sahillərinədək qonaqlara ölkə boyu bələdçilik edəcək və onlara Azərbaycanın gözəlliklərini təqdim edəcək. Azərbaycanda qorunan heyvan növlərindən biri olan ceyran ölkədə təbii gözəlliyin, zərifliyin və saflığın rəmzidir. Ölkəmizdə geniş yayılan nar meyvəsi rəngarəng "Bakı-2015" brendində əks olunaraq artıq bu şəhərdə geniş nümayiş etdirilib.

### Azərbaycan parataekvondoçuları Avropa çempionatında 10 medal qazanıblar



Azərbaycanın parataekvondo üzrə milli komandası Antalyada keçirilən Avropa çempionatında 10 medal qazanıb. Çempionata 12 idmançı ilə qatılan millimiz 3 qızıl, 2 gümüş və 5 bürünc medalla Vətənə qayıdıb. İdmançılarımızdan Nicat Müslümov (-75 kq), Aleksandr Poleşuk (+75 kq) və Aynur Məmmədova (58 kq) fəxri kürsünün ən yüksən pilləsinə qalxıblar. Rövşən Qəhrəmanlı (-61 kq) və Rövşən Rzayev (-75 kq) isə finalda məğlub olaraq gümüş medallara layiq görülüblər. Namiq Abbasov (61 kq), Bahar Şıxəliyeva (-49 kq), Devran Məsənov (-61 kq), Anar Hüseynov (-61 kq) və Şamil Kərimov (61 kq) yarışı bürünc medallarla başa vurublar.

### "Qarabağ"dan Avropa Liqası yarışlarında növbəti heç-heçə



UEFA Avropa Liqası yarışlarının qrup mərhələsi çərçivəsində Azərbaycan çempionu "Qarabağ" komandası Fransada yerli "Sent-Etyen" kollektivi ilə qarşılaşıb. AzərTAc xəbər verir ki, oyunun 15-ci dəqiqəsində "Qarabağ"ın futbolçusu Vüqar Nadirov Maksim Medvedevin ötürməsini mükəmməl qol ilə tamamlayıb. Altı dəqiqə sonra Riki van Volfsvinkel hesabı bərabərləşdirib. İslandiyalı baş hakim Kristinn Jakobssonun idarə etdiyi oyunun 22-ci dəqiqəsində Leroy Corc ikinci topu Fransa təmsilçisinin qapısından keçirsə də, ofsayd olduğu üçün qol qeydə alınmayıb. Görüşün ilk hissəsi 1:1 hesablı heç-heçə ilə başa çatıb. Hesabında 5 xal olan "Qarabağ" və "Sent-Etyen" komandaları ikinci və üçüncü pillədə qərarlaşıblar.

### "Tələbə kuboku"nun qalibi müəyyənləşdi



Azərbaycan Velosiped İdmanı Federasiyası velosiped idmanının kütləviliyi, gənclərin asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliği məqsədilə yeni layihənin icrasına başlayıb. Federasiyadan AzərTAc-a bildiriblər ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti tələbə gənclər təşkilatı ilə birlikdə noyabrın 29-da veloparkda adı çəkilən ali təhsil ocağının fakültələrarası "Tələbə kuboku" yarışı keçirilib. Yekunda kimya fakültəsinin komandası hamını qabaqlamaqla "Tələbə kuboku"nun qalibi olub. İkinci yeri tarix fakültəsi, 3-cü yeri isə coğrafiya və ibtidai hərbi hazırlıq fakültələrinin komandaları tutublar.

### Milli çempionatlarda qol vuran 10 nəfər ən gənc futbolçunun siyahısı açıqlanıb



UEFA-nın Avropa ölkələri üçün tərtib etdiyi siyahıya yüksək liqada qol hesabını 16 yaşadək açan futbolçular daxil olub. Bu siyahıya "Sumqayıt" futbol klubunun yarımmüdafiəçisi Orxan Əliyev də düşüb. Klubun mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, futbolçunun 15 yaş 236 günlüyündə fərqlənməsi UEFA-nın diqqətindən yayınmayıb. 2011-ci ilin avqustunda "Qəbələ" ilə görüşdə fərqlənməsi Orxan Əliyevi rekordçular siyahısına daxil edib. O, UEFA-nın siyahısında 6-cı pillədə qərarlaşıb.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

*Publisistik düşüncələr*

# Vicdan susanda və susmayanda

Cəmiyyətdə nələr olur, kim cəmiyyətin yükünü çəkir, kim cəmiyyətə urvatsız yükdür....

Uzun illər fəlsəfənin məşğul olduğu ən böyük probleme cavab tapıldı: dünya dərk ediləndir. Min-min illərdi dünyada dərk edilməyən hadisələr də olur. İndi də var. Onların əksəriyyəti tərbiyə məsələsidi, dünyaduyumu, insaf, bir az da sərt desək, vicdan məsələsidi və bunlar özlüyündə dənizdə damla misallı olsa da var. Belə hadisələrə biganəlik zaman anlamında sabahlara biganəlikdir, şübhəsiz. Təkcə sabahlaramı? Həm də dövlətin ərazi bütövlüyünə. Xalq yazıçısı Mehdi Hüseynin hekayələrindən birində Girdman dövlətinin sərkərdəsi Cavanşirin döyüşdə yaralanmış döyüşçülərə ən dəyərli məlhəmin məmləkətin qızlarının şəfqəti olmasından söz açılır; qızlar döyüşçülərin yaralarını bacı mehr-ülfətiylə sarıyır, neçəsi sevdiyinin ağır-yüngül yaralarına öz əlləriylə məlhəm qoyur. Məmləkətə yağı ayağı dəymir...

Dostumun qardaşı Tahir nişanlı idi. Toyları olacaqdı (1991-ci il). Toy ərəfəsində, fevral ayının 26-da ermənilərin Xocalıda qətliam törətməsi Tahirin də qəlbini qana döndərib. Qarabağa getməyi, özünümüdafiə batalyonlarından birində döyüşməyi qərara alıb. Kimsəyə demədən Ağdama yollanıb, döyüşməyə. Harda olduğunu əzizləri yaralanıb Mərkəzi Hərbi hospitala göndəriləndə bilib. Sol qolunu qəlpə aparıbmış. Anası, qardaşı, bacıları, onu tanıyanlar-sevənlər "Şükür, sağdı..." deyiblər. Təkcə nişanlısı belə deməyib, nişanlısı "Şikəst oğlan nəyimə gərəkdi? Şikəst adamla ailə qurmaram!" deyib, nişanı qaytarıb. Tahir hələ hospitalda olanda....

O qızın - adı Əfsanəydi - taleyi necə oldu, bilmirəm. Türklər demişkən, belələrinə yazıqlar olsun!

Ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə qolunu itirəni də sevən oldu. Tahir ailə qurdu, indi iki oğlu var, dövlət müəssisəsində işləyir...

Tahirlə eyni taleyi İlqar da yaşamışdı. O da nişanlanma ərəfəsində döyüşlərə getmişdi. Qəlpə sol gözünü tökmüşdü, sağ ayağını aparmışdı. Füzuli hospitalındaydı. Gülər - sevdiyi qız - İlqarın ağır yaralandığını, hospitalda olduğunu hardansa eşidir. Kimsəyə demədən özünü Füzuliyə yetirir - İlqarın yanına. Gecənin gecə vaxtı bu gözlənilməz gəlişin nə gəliş olduğunu, gələnin kimliyini təxmin edincə həkim də, tibb bacısı da hiss etdirmədən palatadan çıxır. Günay özünü İlqarın üstünə atır:

- Yaralandığını niyə bildirməmisən? Niyə? Nədən ehtiyatlanırdın? Ayağın yoxdu, ikimizə üç ayaq bəs edər. Gözünün biri yoxdu, ikimiz üç gözlə də dolanarıq. Sağsan, yaşayırsan, bəsimdi! Bəsimdi...

Komandirin (indi ali rütbəli zabitdir) gözləri dolub. Günayın dağınıq saçlarını oxşayıb. Mehrli, şirin təbəssümlə İlqara deyib:

- Kişi kimi vuruşubsan. Müharibədə heç kim yaralanmaqdan, ölümdən sığortalanmayıb. Dövlət səni təltif edəcək. Ən böyük təltifin Günayın gəlişidi.

Deyib və hərbi məktəbə gedəndə anasının bağışladığı üzüyü barmağından çıxardıb Günayın barmağına taxıb:

- Bu, sizin nişan üzüyünüz olsun...

(Qoy kimsə Günayı qınağa meyillənməsin. Müqəddəs bir niyyət naminə döyüşən, ayağını, gözünü itirən oğlanın sevgisinə məhz Günay kimi qızın sevgisi layiqdi. Və Günay bu hərəkəti ilə Əfsanəliyə meyilliləri də insafa, mürvətə, vicdana çağırıb).

Həmin gün Ərgünəşə qar yağırdı. Yox, yox, qar deyildi, göylərin qar biçimli göz yaşlarıydı - təsəllidən axan göz yaşları...

Tahiri də, İlqarı da döyüşlərə Vətən sevgisi aparmışdı. İkisi də çağırış gözləmədən getmişdi. İkisi də yaralanmışdı. Tahirin nişanlısının vicdanı susmuşdu - nişanını qaytarmışdı. İlqarın sevdiyi qız xəbər tutunca özünü hələ ad olmadığı, nişanlanmadığı oğlana yetirmişdi. Sevdiyi oğlanın qəlbində gümanlar cücərməmiş. Ümid işığı, sevgi haləsi kimi yetirmişdi...

Görəsən, Əfsanənin qardaşı döyüşlərdə bu şəkildə yaralansaydı, onun nişanlısı nişanı qaytarsaydı, Əfsanə nə edərdi? Qardaşının nişanlısına haqq qazandırardımı? Günayın sevgisindən xəbər tutanda özünü qınayıbmı?..

Vicdan susanda Əfsanələşmə başlayır, susmayanda Günaylaşma...

Vicdanın susması dəhşətdi. Vicdan susmayanda fəzilətlərə qapı açılır...

Torpaq naminə, ərazi bütövlüyümüz naminə hamımız döyüşə həmişə hazır olmalıyıq. Komandir də, Tahirlər də, İlqarlar da, Əfsanələr də, Günaylar da, Rəşidlər də,... Həm də Əfsanələr Günaylaşmalıdı. Hamını bir mətləb çulğamalıdı: Müharibə qurtarmayıb. Müharibə torpaqlarımız azad ediləndə başa çatacaq.

**Rəşid FAXRALI, "Azərbaycan Ordusu"**

Kapitan Məmmədov Kənan Eldar oğluna 2000-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu kiçik çavuş Kosayev Şiraz Mehman oğluna 2012-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 402
Nüsxə 4570